ARTİ

AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL İNSTİTUTU

WORLD CAPITAL OF WOMEN AND GIRLS IN SCIENCE
AZERBAIJAN 2024

# STEAM RESURSLARI



8 sentyabr 2024 -cü il tarixində "Beynəlxalq Etimad Kral Elmlər Akademiyası" (RASIT) tərəfindən Azərbaycan, 2024–2025-ci illər üzrə "Elmdə Qadın və Qızların Dünya Paytaxtı" elan olunmuşdur.
Bu mühüm təşəbbüs qadın və qızların elm və təhsildəki aparıcı rolunu tanıtmaq və təşviq etmək məqsədi daşıyır. Layihə çərçivəsində STEAM (Elm, Texnologiya, Mühəndislik, İncəsənət və Riyaziyyat) sahəsində şagirdlər və ümumi təhsil məktəblərində çalışan müəllimlər üçün faydalı onlayn resurslar hazırlanmışdır.
Bu resurslar vasitəsilə müəllimlər dərslərini daha maraqlı və innovativ şəkildə təqdim edə biləcək, şagirdlər isə STEAM sahələrinə maraqlarını artıra biləcəklər.

ARTİ
AZƏRBAYCAN RESPUBLİKASININ
TƏHSİL İNSTİTUTU

WORLD CAPITAL OF
WOMEN AND GIRLS IN SCIENCE
AZERBAIJAN 2024

## Khan Academy

Khan Academy pulsuz virtual təhsil platformasıdır. Bu platforma, riyaziyyat, elm, kompüter proqramlaşdırması, incəsənət və humanitar elmlər kimi müxtəlif fənlər üzrə dərslər təqdim edir. Khan Academy vasitəsilə şagirdlər müxtəlif mövzularda dərsləri video və interaktiv tapşırıqlar ilə öyrənə bilər. Həmçinin, platforma müəllimlərə dərs planları və qiymətləndirmə alətləri təqdim edərək tədris prosesini asanlaşdırır.

Saytın linki

https://az.khanacademy.org

## Tinkercad

TinkerCad – Autodesk tərəfindən hazırlanmış 3D modelləşdirmə sistemidir. Saytdan istifadə etməklə modelləşdirmə, 3D dizayn, fəza fiqurları kimi mövzuları tədris etmək mümkündür. Saytda həmçinin modellər hazırlamaq üçün öyrədici dərslər verilib. Şagirdlər hazırladıqları işləri saytın albom hissəsində paylaşa bilər.

İstifadə təlimatı
https://www.youtube.com/watch?v=uT87BInYIB0

Saytın linki
https://www.tinkercad.com

## Scratch

Scratch şagirdlərə interaktiv hekayələr, oyunlar və animasiyalar hazırlamaqla kodlaşdırmanı öyrənməyə imkan verən MIT tərəfindən hazırlanmış onlayn platformadır.

İstifadə təlimatı

https://www.youtube.com/watch?v=I1r02jDnIv8

Saytın linki

https://scratch.mit.edu/

## National Geographic Kids

National Geographic Kids əyləncəli və interaktiv öyrənmə resursları, o cümlədən videolar, məqalələr, oyunlar təqdim edir.

Saytın linki

https://kids.nationalgeographic.com

**NASA Solar System Exploration**

Bu sayt vasitəsilə şagirdlər günəş sistemini virtual olaraq tədqiq edə bilərlər.

Saytın linki

https://science.nasa.gov/solar-system/



## Telescope Simulator

Telescope Simulator vasitəsilə şagirdlər göy cisimlərinin müxtəlif növ teleskoplardan necə göründüyü haqqında fikir formalaşdıra bilərlər. Onlar, həmçinin, teleskopun ölçüsünü də seçə bilərlər.

Saytın linki

https://www.stelvision.com/astro/telescope-simulator/



**PBS Kids**

PBS Kids xüsusilə azyaşlı uşaqlar üçün nəzərdə tutulan oyun saytıdır. Uşaqlar elmə dair oyunlar oynayaraq biliklərini əyləncəli yolla artıra bilərlər.

Saytın linki

https://pbskids.org/games

**DIY.org**

Bu platforma şagirdləri öz layihələrini dizayn etməyə və qurmağa təşviq edir.

Saytın linki

https://www.diy.org/

**PhET Interactive Simulations**

2002-ci ildə Nobel mükafatı laureatı Karl Viman tərəfindən təsis edilmiş PhET Interactive Simulations pulsuz interaktiv riyaziyyat və təbiət elmləri üzrə simulyasiyalar təqdim edir. PhET simulyasiyaları geniş təhsil araşdırmalarına əsaslanır və şagirdləri intuitiv, oyunabənzər bir mühitdə tədqiqat və kəşf yolu ilə öyrənməyə təşviq edir.

Saytın linki

https://phet.colorado.edu

**The Kid Should See This**

Bu vebsaytda elmin müxtəlif sahələrinə aid videolar bir arada toplanıb. Hazırda vebsaytda YouTube platformasından seçilmiş 7,000-ə yaxın video var. Videolar mövzular üzrə qruplaşdırılmışdır.

Saytın linki

https://thekidshouldseethis.com

## NASA

NASA-nın bu vebsaytı şagirdlər, müəllimlər və valideynlər üçün hazırlanmış öyrənmə resurslarını təqdim edir. Saytda kosmos, elm və texnologiya ilə bağlı interaktiv materiallar, dərs planları və tədris vəsaitləri mövcuddur.

Saytın linki

https://www.nasa.gov/learning-resources/

**Code.org**

Code.org, kompüter elmləri və süni intellekt sahəsində təhsil imkanlarını genişləndirməyə həsr olunmuş qeyri-kommersiya təşkilatıdır. Təşkilat, məktəblərdə bu sahələrin tədrisini artırmaq və xüsusilə qadınlar və az təmsil olunan qrupların iştirakını artırmaq məqsədi daşıyır.  Code.org, ibtidai siniflərdən orta məktəbə qədər müxtəlif yaş qrupları üçün pulsuz proqramlaşdırma dərsləri və resurslar təqdim edir.

Saytın linki

https://code.org

## CS Unplugged

CS Unplugged, kompüter elmlərini kompüter olmadan öyrədən pulsuz tədris materialları toplusudur. Bu resurs, kartlar, iplər və digər əşyalar vasitəsilə alqoritmləri və süni intellekt kimi anlayışları əyləncəli və interaktiv şəkildə təqdim edir.

Saytın linki

https://csunplugged.org

CS UNPLUGGED

Computer Science without a computer

**MIT App Inventor**

MIT App Inventor, Massachusetts Texnologiya İnstitutu (MIT) tərəfindən hazırlanmış, istifadəçilərə vizual blok əsaslı proqramlaşdırma vasitəsilə mobil tətbiqlər yaratmağa imkan verən pulsuz bir platformadır. Bu alət, xüsusilə uşaqlar və yeni başlayanlar üçün proqramlaşdırmanı asanlaşdırır və yaradıcı layihələr üzərində işləməyə imkan verir.

Saytın linki

https://appinventor.mit.edu

**Blockly Games**

Blockly Games, Google tərəfindən hazırlanmış, yeni başlayanlar üçün proqramlaşdırmanın əsaslarını öyrədən interaktiv oyunlar toplusudur. Bu platforma, istifadəçilərə vizual bloklar vasitəsilə kodlaşdırma prinsiplərini əyləncəli və praktiki şəkildə öyrənmək imkanı verir.

Saytın linki

https://blockly.games



**Chrome Music Lab**

Chrome Music Lab, Google tərəfindən yaradılmış və istifadəçilərə musiqini əyləncəli şəkildə öyrənməyə imkan verən interaktiv bir platformadır. Bu sayt, müxtəlif musiqi anlayışlarını, məsələn, ritm, melodiya və harmoniya kimi mövzuları əhatə edən bir sıra eksperimentlər təqdim edir.

Saytın linki

https://musiclab.chromeexperiments.com



**Smithsonian Learning Lab**

Smithsonian Learning Lab istifadəçilərə milyondan çox rəqəmsal resurs təqdim edir. Bu resurslar arasında şəkillər, videolar, mətnlər və digər materiallar yer alır və həmçinin, istifadəçilərə öz tədris kolleksiyalarını yaratmaq və paylaşmaq imkanı verir.

Saytın linki

https://learninglab.si.edu/

**AutoDraw**

AutoDraw, Google Creative Lab tərəfindən yaradılmış bir rəsm alətidir. Bu alət, istifadəçilərin sadə eskizlərini süni intellekt və peşəkar rəssamların işləri ilə birləşdirərək sürətli və dəqiq şəkillər yaratmalarına kömək edir

Saytın linki

https://autodraw.com

AutoDraw

Fast drawing for everyone.

**NRICH Maths**

Bu sayt, riyaziyyatla maraqlanan və özünü bu sahədə inkişaf etdirmək istəyənlər üçün nəzərdə tutulub. Məqsəd, istifadəçilərə riyaziyyat üzrə fərqli fəaliyyətlər təqdim edərək onların riyazi bacarıqlarını inkişaf etdirməkdir.

Saytın linki

https://nrich.maths.org

nrich
enriching mathematics

**Mathigon**

Mathigon, riyaziyyatın maraqlı və əyləncəli şəkildə öyrədilməsini təmin edən interaktiv platformadır.

Saytın linki

https://mathigon.org

## Instructables

Instructables müəllimlərə müxtəlif DIY (Özün Et) layihələri və dərs materialları təqdim edən platformadır. Son məqsəd isə, şagirdlərə praktiki və yaradıcı təcrübələr qazandırmaqdır.

Saytın linki

https://www.instructables.com

**Which One Doesn’t Belong?**

Bu saytda fərqi tapmağa yönəlmiş müxtəlif tapşırıqlar uşaqların diqqətini artırmağa yönəlib.

Saytın linki

https://talkingmathwithkids.com/wodb/